# Qaşqaylar və onların folkloru

**Folklorşünas alim Əli Şamilin "Qaşqaylar və onların folkloru" kitabını oxuculara təqdim edirik**

*əvvəli ötən saylarımızda*

## "525-ci qəzet"dəki yazımın Şirazda əks-sədası və ya Baba Kuhinin işığında

**Bu yay Şirazda olarkən görüşdüyüm Qaşqay ziyalılarının Baba Kuhi kimi tanınan məşhur sufi alim Şeyx Məhəmmədəli Əbu Abdullah Məhəmməd ibn Abdullah ibn Ubeydullah ibn Əhməd Şirvani Babakuhinin azərbaycanlı olmasını bilməmələri məni üzdü.**

Bakıya qayıdanda "Qaşqay elinə səfər" adlı bir məqalə yazdım. Məqalədə Baba Kuhiyə də geniş yer ayırdım. Həcmi böyük olsa da, məqaləmi "525-ci qəzet"in üç sayında nəşr etdilər. "525-ci qəzet"də çap olunan məqalələrin surətini İran İslam Respublikasında yaşayan bəzi tanışlara göndərdim. Bir azdan xəbər tutdum ki, Urmiyadan Fərhad Cavadi məqalənin Baba Kuhi ilə bağlı olan parçasını əski əlifbaya çevirərək dost-tanışına, "Xudafərin" dərgiinə göndərib. "Xudafərin" dərgi da çox operativ şəkildə bu ilin Aban (Oktyabr) ayında nəşr olunan 169-cu sayında onu çap edib. Şirazda da Əvəzullah Səfəri Kəşkullü (Bizim öz yazı qaydalarımıza uyğun Əvəzullah kimi işlətdiyimiz ad Qaşqaylarda da belə deyilir, ancaq sənədlərdə Farsca Evəzollah kimi yazılır - Ə.Ş.) həmin məqaləni Qaşqay ləhcəsinin qaydalarına uyğunlaşdıraraq surətini çıxarıb dost-tanışı arasında yayıb. Baba Kuhinin azərbaycanlı olması haqqında Əbdürrəhman Caminin, Həmdulla Qəzvininin əsərlərini qaynaq göstərməyim onla rın daha çox xoşuna gəlib. "525-ci qəzet"in nəşr etdiyi məqalə Şirazda yaşayan Qaşqaylara öz təsirini göstərib. Oradan aldığım məktublar və videolar dan ötən cümə günü (İranda cümə günü istirahət günüdür. Həmin gün rəsmi idarələrdə iş olmur, bazar bağlanır) 45-50 nəfər Qaşqayın ailəliklə Baba Kuhi məzarına ziyarətə getdiyini, orada qurban kəsdiklərini və birlikdə süfrə açıb nahar etdiklərini öyrəndim. "525-ci qəzet"in nəşr etdiyi məqalə Şirazda yaşayan Qaşqaylara öz təsirini göstərib. Oradan aldığım məktublar və videolardan ötən cümə günü (İranda cümə günü istirahət günüdür. Həmin gün rəsmi idarələrdə iş olmur, bazar bağlanır) 45-50 nəfər Qaşqayın ailəliklə Baba Kuhi məzarına ziyarətə getdiyini, orada qurban kəsdiklərini və birlikdə süfrə açıb nahar etdiklərini öyrəndim. Qaşqaylar Baba Kuhi məzarında qurban kəsməklə kifayətlənməmişlər. "Ocaq" Qaşqay Mədəniyyət Mərkəzinin rəhbəri İsmayıl Musalı, Qaşqayların milli fəallarından Qulamhüseyn Muğanlı Rahimi, Təməddün (Mədəniyyət) mədrəsəsinin müəllimi, uşaq yazıçısı, Qaşqay ləhcəsində insan bədən üzvlərinin adları haqqında kitabın yazarı Zəhra Tahirifər, yazıçı Mahnaz Rahmat İgdiri məzar başında öz yazılarını oxumuş, "525-ci qəzet"də nəşr edilən məqalənin surətini paylamışlar. Beləcə, məqalə bir qrup Qaşqay insanını Baba Kuhi işığına toplamışdır. Toplantının təşkilində xüsusi fəallıq göstərən, şair və araşdırmaçı Əvəzullah Səfəri Kəşkullü "525-ci qəzet"dən Baba Kuhi haqqında yazılan məqaləni oxumaqla kifayətlənməmiş, özünün son günlər yazaraq Baba Kuhiyə və Qarabağa həsr etdiyi şeirlərini də oxumuşdur.



**Baba Kuhi ağırlaması**

Gəl qonağa hörmət qılaq,
Bakıdan bir qonaq gəlmiş.
Bu qonaqdan qədir biləк,
Bizdən almış soraq, gəlmiş.
Ariflərin atasıdır,
O, Sirvanlı balasıdır,
Qaf dağının Ənqasıdır,
Yolları çox uzaq gəlmiş.
Bəzənmişdir nar-i nurdan,
Musa kimi gəlib Turdan,
Bakı, Şirvan, Nişapuran,
Şiraza bir dayaq gəlmiş.
Çıxıb elmin qıqacından,
(at çaparkən geriyə dönüb ox atmağa deyilir)
Soraq almış Həllacından,
Dönüb irfan Meracından,
Minmiş Boraq atın, gəlmiş.
Tikilmiş sufu dəkkəsi,
Rövnəqə qalmış təkkəsi.
Sayqıyladır fəlsəfəsi,
Qədəmindən oyaq gəlmiş.
Bəkləmiş Xoca Ənsarı
Görə Fəxrəddin Əttarı,
Xorasanın alimləri,
Sanki yeddi çıraq gəlmiş.
Müsahiblər mükərrimdir.
*Başında Xoca Ədhəmdir, (Şirazın məşhur ariflərindən İbrahim Ədhəmə işarədir)*
Nəzər qıl, gör nə aləmdir,
Axıb dağdan bulaq gəlmiş.
Abu Abdullah Bakuvi,
Əcəm soylu Baba Kuhi,
Müridləri çəkdi "Yahu!"
Ki mürşid-xoşdamaq gəlmiş.
Gül açmış Bakı bağları,
Nə parlaqdır yanaqları,
Şirazda Türk uşaqları.
Güləş gültək dodaq, gəlmiş.

Şair Əvəzullah Səfəri Kəşkullü şeirində sufi alimlərin adını çəkmiş və sufi terminlərindən geniş istifadə etmişdir. Əvəzullah Səfəri Kəşkullü onları "Sanki yeddi çıraq gəlmiş" kimi vermişdir. Qaf dağında yaşayan əfsanəvi Simurq quşunu sufilər Ənqa adlandırırlar və gizli, gözlə görünməyən şeylərə də ənqa deyirlər. Həm də Haqqın mərifəti, mənəvi dəyər Ənqa kimi verilir. Ərəb dilində od anlamını verən nar sözünü sufilər insanın ad-sanını, vücudunu yandırıb onu maddi bağlılıqdan qurtaran eşq odu kimi işlədirlər. Şirazda Qaşqay evlərində qonaq olarkən kəndimizi xatırladan çox şeylə rastlaşırdım. Təxminən 1960-cı illərdə kəndimizə, birinin evinə Gəncədən, Bakıdan, İrəvandan və b. yerlərdən qonaq gələndə hamı oraya toplaşar, söhbət edər, yeyib-içib gedərdilər. Sonra növbə ilə qonağı evlərinə dəvət edərdilər. Hər dəfə də qonaq hansı evə gedirdisə adamlar da oraya, qonağın başına toplaşırdılar. 1980-ci illərdə bu ənənənin aradan qalxdığını gördüm. Qaşqaylarda isə bu ənənə hələ də yaşayır. Kimin evinə gedirdiksə, oraya xeyli adam gəlirdi. Gələnlər həm də xanımlarını, övladlarını gətirirdilər. Ev sahibinin dəvət etmədiyi, bəzən tanımadığı bu adamların gəlişindən rahatsızlıq duyduğunu hiss etmədim. Əksinə, xoşhal olduğunu gördüm. Görünür, elat ənənəsini hələ də davam etdirirlər. Şirazda olduğumuz günlərdə müxtəlif peşə sahibi olan Qaşqay aydınları ilə görüşüb dərdləşdik.

## Xəstəyə baş çəkmək: Mənuçehr Kəyaninin evində

Şirazda şəxsən tanıdığım bir alim vardı – Mənuçehr Kəyani. Onu xəbər aldım. Dedilər ki, xəstədi. Ona baş çəkməyi, türkiyəlilər demiş, "Keçmiş olsun!" deməyi qərara aldıq. Axşam dostlarla birlikdə onun evinə getdik. Mənuçehr Kəyani ilə ilk dəfə 1999-cu ilin Novruz bayramı günlərində Türkiyənin Elazıq şəhərində görüşmüşdük. Firat Universiteti rektorluğu, Atatürk Yüksək Kurumu, Atatürk Kültür Mərkəzi Başkanlığının 18-20 martda keçirdiyi "Türk dünyasında Nevruz. Üçüncü Uluslararası bilgi şöləni"nə gəlmişdi. Qaşqaylar haqqında bir neçə kitab nəşr etdirmiş Mənuçehr Kəyani orda "Qaşqaylarda Novruz bayramı" mövzusunda məruzə etdi. Həmin simpoziumda mən də Ordubad rayonundan topladığım materiallar üzrə "Novruz bayramında xanbəzəmə" haqqında danışdım Bizim Kəyanigilə gedişimizdən xəbər tutan xeyli Qaşqay aydını da oraya gəlmişdi. Gələnləri ilk dəfə idi görürdüm. Amma söhbətimiz elə şirin keçirdi ki, elə bil neçə ilin yaxın tanışları idik.

Mənuçehr Kəyani ilə sonralar da bir neçə elmi toplantıda görüşdük. Qaşqayların tarixi, etnoqrafiyası, folkloru ilə bağlı bir neçə kitabı vardı. Hətta istədik ki, onun Qaşqay folkloru ilə bağlı yazıları əsasında AMEA Folklor İnstitunda bir "Qaşqay folklor antologiyası" kitabı da çap edək. İşə başlamaq istəyəndə gördük ki, Mənuçehr Kəyani folklor materiallarını toplayıb və çap edirərkən pasportlaşdırmadığı bir yana, Fars dilinə tərcümə edərkən də sərbəstliyə yol verib. Bu da institumuzun qaydalarına uyğun gəlmədiyi üçün başlanmış iş yarıda qaldı. Mənuçehr Kəyani Bakıya da tez-tez gəldi. AMEA Fəlsəfə və Hüquq İnstitunda doktorluq müdafiə etdi.



**Səkildə soldan: Əli Şamil və Mənuçehr Kəyani**

Mənim diqqətimi ilk tanışlıqdan çəkən Mənuçehr Kəyaninin xanımının adının Turan olması idi. 20-ci yüzildə dövlət siyasətində Fars milliyyətçiliyi hakim olduğu bir zamanda valideynlərin qızlarına Turan adını qoyması cəsarət tələb edirdi.

*ardı var...*



**Qaşqay aydınlarının bir qrupu ailələri ilə birlikdə Baba Kuhinin məzarını ziyarət edərkən**